

# “Qalib sorağımı gözləyənlərə sevinc bəxş edirəm”

## *Ülkər Əliyeva:*

## “Arzum rəssamlıq məktəbinin Tahir Salahov zirvəsinə yüksəlməkdir”

Gənc rəssam Ülkər Əliyevanın bir-birindən əlvan, insanı ecazkar rənglər aləminə, lap nağıllarda olduğu kimi, Simurq quşunun qanadlarında ilahi hisslərə qovuşduran rəsmləri ilə yaxından tanış oluram. Hələ ömrünün gənclik illərinə yenicə qədəm qoyan Ülkərin yaradıcılıq məhsulları öz zəngin çalarları ilə olduqca diqqətəlayiqdir. Yaradıcılığında olduğu kimi xarakteri də həlim və qeyri-adi olan yeniyetmə rəssam ilə söhbətimiz də maraqlı oldu. Mən ondan özü və yaradıcılıq yolu haqda “Azərbaycan müəllimi”nin oxucularına ətraflı məlumat verməsini xahiş etdim və o, xahişimi məmnuniyyətlə qəbul edərək dedi:

### Həyatımda ən yaddaqalan gün

- Lap kiçik yaşlarımdan şəkil çəkməyə meyil göstərmişəm. Yazıb-oxumaqdan daha çox rəsm çəkməyə meyilli olduğumu hiss edən valideynlərim məni 3 nömrəli Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində rəsm dərnəyinə yazdırıblar. Bu, mənim həyatımda bəlkə də ən yaddaqalan bir gün oldu. Rəsm çəkməyin sirlərini həvəslə mənə aşılayan sevimli müəllimim Təranə Heydərova olub. Artıq 11-ci sinifdə oxuyuram. Ötən bu illər ərzində çəkdiyim rəsmlərin, yaratdığım tabloların demək olar ki, hamısını özümə ən sadiq dostlar sanıram. Çünki bu rəsmlər məni respublikada və onun hüdudlarından kənada tanıtdırdılar, mənə şərəf qazandırdılar.

### Uğurlara aparan yol

Belə ki, istər ölkə daxilində qatıldığım müsabiqələrdə, istərsə də beynəlxalq yaradıcılıq yarışmalarında həmişə öncül yerlər qazanmışam. Amma bu qələbələr mənə heç də asanlıqla başa gəlməyib, gecəgündüz öz üzərimdə çalışmışam. Heç vaxt biz şagirdlərdən diqqət və qayğısını əsirgəməyən direktorumuz Lalə Qətinin, müəllimlərimin, valideynlərimin və sənətimə qiymət verən dostlarımın ümidlərini doğrultmağa çalışmışam. Rəssam yaşıdlarım arasında seçilmək üçün dünya klassik sənət korifeylərinin, bu günlərdə ömrünün ixtiyar çağında dünyasını dəyişən Tahir Salahov kimi xalqımızı dünyada tanıtdıran ustad rəssamın, Səttar Bəhlulzadə kimi fövqəl istedad sahibi olan korifey rəssamın yaradıcılıqları ilə dərindən tanış olmuşam. Sənətdə əsas prinsipim də həmişə belə olub: gərək bəhrələnə biləsən ki, səndən də bəhrələnənlər olsun.

### Sayı-hesabı olmayan uğurlarım

Təvazökarlıqdan kənar olsa da, deməliyəm ki, iştirak etdiyim yaradıcılıq müsabiqələrinin sayı-hesabı olmadığı kimi, qazandığım qələbələrin də siyahısı kifayət qədərdir. Hər dəfə istirak etdiyim müsabiqəni uğurla başa vuranda sanki yenidən doğuluram, çünki qalib sorağımı gözləyənlərin hamısına sevinc bəxş edirəm. Bundan böyük nailiyyət olarmı? Yeri gəlmişkən, onu da deyim ki, atam da, nənəm də dizayn, rəsm çəkmək üzrə xüsusi qabiliyyətə sahib insanlardır. Qazandığım bütün qələbələrdə onların da payı olduğunu vurğulamaq istəyirəm. 2021-ci ilin 10 mart tarixində onlayn müsabiqədə qalib olduğuma görə Bolqarıstan səfirliyində mükafatlandırıldım.

### Sərgilərdə rəsmlərim rəğbətlə qarşılanır

Müxtəlif təyinatlı sərgilərdə də mütəmadi olaraq iştirak edirəm və əsərlərim xüsusi rəğbətlə qarşılanır. İlk iştirak etdiyim sərgi 2016-cı ildə olub və “İnsan hüquqlarının qorunması” adlanıb. Həmin sərgidə mənim rəsmlərim 2-ci yerə layiq görüldü və bu, mənə böyük stimul verdi. Gül bayramlarında, Respublika Günündə, insan hüquqlarının qorunmasına aid olan tədbirlərdə, ölkəmizdə keçirilən bütün əlamətdar bayram şənliklərində daim iştirak edirəm və mükafatlar qazanıram.

### Yarışlara həm də təcrübə toplamaq üçün qatılıram

Ancaq onu da deyim ki, mən yarışlara təkcə mükafat qazanmaq arzusu ilə deyil, təcrübə toplamaq, bilmədiklərimi daha dərindən öyrənmək üçün qatılıram və bu ümidim doğrulur da. Bu yarışlarda iştirak etməklə mən dünyanın müxtəlif yerlərində özümə çoxlu dostlar qazanmışam. İlk fərdi sərgim 2020-ci il 3 mart tarixində öz mərkəzimizdə keçirilib. Həmin sərgidə 30-dan çox rəsmim nümayiş olundu. Mərkəzimizin direktoru Lalə Qəti, müəllimlər, eləcə də digər dərnəklərdən olan dostlarım və valideynlərim sərgimdə iştirak etdilər. Qismət olsa, gələcəkdə də bu ənənəni davam etdirmək, fərdi sərgi keçirmək arzusundayam. Valideynlərim və müəllimlərimə demişəm ki, rəssam olacağam, vəssalam. Arzum da elə gələcəkdə Bakıda Rəssamlıq Akademiyasını bitirmək və İtaliyada magistratura təhsili almaqdır.

Həmsöhbətimə uğurla orta məktəbi başa vurmağı və gözəl arzusuna qovuşmağı arzulayaraq xoş əhvali-ruhiyyə ilə ondan ayrıldım.

**Sifai SƏFƏROVA**

Azərbaycan müəllimi.- 2021.-11 iyun.- S.9.